# RUS POEZİYASİNİN GÜMÜŞ DÖVRÜ








"Rus poeziyasının Gümüş dövrü" - bu qanadlı ifadənin müəllifi qismində üç nəfərin adı hallanır: filosof Nikolay Berdyayev, tənqidçi Nikolay Otsub və şair Vladimir Mayakovski.

XIX əsrin sonlarına, XX əsrin əvvəllərinə aid edilən zəngin rus poeziyasının otuz illik dövrü (1890-1920) böyük bir ədəbi nəslin fəaliyyəti, eyni zamanda müxtəlif ədəbi cərəyanların meydana gəlməsi ilə əlamətdardır.

Bəzi tədqiqatçılar Gümüş dövrün başlanğıcını on il qabağa - 1880-ci ilə çəkirlər və bununla razılaşmaq mümkündür. Lakin dövrün sonu ilə bağlı fikirlər bir qədər mübahisəlidir. Belə ki, bəziləri həmin dövrün Rusiyada vətəndaş müharibəsinin başlanması ilə sona çatdığını söyləyir, bəzi araşdırmaçılar isə onun Alesandr Blokun vəfat etdiyi, Nikolay Qumilyovun güllələndiyi ildə (hər iki hadisə 1921-ci ilin avqustuna təsadüf edir) bitdiyini iddia edirlər. Hətta Gümüş dövrün ömrünü Mayakovskinin intihar etdiyi 1930-cu ilə qədər uzatmağa çalışan opponentlər də var. Əsassız olmayan bütün bu fikirləri ümumiləşdirəndə isə ortaya belə bir mənzərə çıxır ki, rus poeziyasının Gümüş dövrü bir yanaşmada (1890-1920) otuz il, digər yanaşmada (1880-1930) əlli il - yarım əsr təşkil edir.

Əlbəttə, ədəbiyyat tarixi üçün otuz ya əlli ilin elə də ciddi fərqi yoxdur, amma ədəbiyyatın özü üçün məhz bu yarım əsrlik müddətdə ortaya çıxmış parlaq imzaların - akmeizm, futurizm, kubofuturizm, eqofuturizm, imajinizm kimi ədəbi cərəyanların yaradıcısı olan sənətkarların böyük önəmi var. Geniş siyahıdakı adlar isə, sadəcə, göz oxşayır: Boris Pasternak, Anna Axmatova, Marina Svetayeva, Andrey Belıy, Sergey Yesenin, Osip Mandelştam, Valeri Bryusov, İqor Severyanin, Vladimir Narbut, Konstantin Balmont, İnnokenti Annenski, Zinaida Gippius, Maksimilian Voloişin, Nikolay Qumilyov, Velimir Xlebnikov, Vera İnber, Mirra Loxvitskaya, Saşa Çyornıy, Mixail Kuzmin, Sergey Qorodetski, Vladislav Xodaseviç, Dmitri Merejkovski, Nikolay Aseyev, Ryurik İvnev, Nadejda Teffi, Demyan Bednı, İlya Selvinski, Daniil Xarms, Nikolay Klyuyev, Aleksandr Vvedenski, Anatoli Marienqof...